Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

EDF
SBIIYF

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF)

# Sahibkarlığın Əsasları Təlimi

# Mövzu: «Lisenziya və icazələr»

Təlimçi:
İlkin Qarayev

# Lisenziya nədir

- **Lisenziya** – müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən verilən rəsmi sənəddir.
  - **Ümumi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünü onun bütün alt növlərinin hər biri üçün ayrılıqda xüsusi lisenziya almadan həyata keçirmək hüququ verən lisenziyadır.
  - **Xüsusi lisenziya** – lisenziya tələb olunan fəaliyyət növünün bir və ya bir neçə alt növünü həyata keçirmək hüququ verən lisenziyadır.

# İcazə nədir

**İcazə** – müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün icazə verən orqan tərəfindən verilən rəsmi sənəd (icazə, razılıq, sertifikat, şəhadətnamə, akkreditasiya və s.), ərizəçi ilə bağlanılan müqavilə və ərizəçiyə münasibətdə edilən hər hansı digər hərəkətdir.

# Biznesdə istifadə olunan lisenziya və icazələr

Biznes fəaliyyətinin bir sıra növləri ilə məşğul olmaq üçün lisenziya və ya icazə alınması tələb olunur



# Xüsusi icazə (lisenziya) verən orqan

**Xüsusi icazə (Lisenziya) verən orqanlar Azərbaycan Respublikasının qanunları ilə və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.  Bu haqda daha geniş məlumatı “Lisenziyalar və icazələr” portalından əldə etmək olar: [https://lisenziya.gov.az/](https://lisenziya.gov.az/)**



# Lisenziyadan və icazədən istifadə

Lisenziyanın (icazənin) sahibi lisenziyadan (icazədən) yalnız özü istifadə edə bilər və onu başqa şəxsə verə bilməz. Lisenziyanın (icazənin) qüvvəsi lisenziya (icazə) sahibinin təsisçi (iştirakçı) olduğu hüquqi şəxslərə, habelə lisenziyanın (icazənin) sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.



# Lisenziyanın və icazənin verilməsi müddəti

Lisenziya verən orqan təqdim olunmuş sənədlərə baxılmasının nəticəsi əsasında ərizənin qeydiyyata alındığı tarixdən 10 iş günündən gec olmayaraq lisenziyanı verir və ya verilməsindən imtina haqqında inzibati akt qəbul edir.



# Lisenziyanın və icazənin əlavəsi

Lisenziyada göstərilən fəaliyyət növü və icazədə göstərilən hərəkət ərazi baxımından ayrı-ayrı obyektlərdə həyata keçirildiyi (icra edildiyi) halda və özəl tibb fəaliyyəti, tikintisinə icazə tələb olunan bina və qurğuların mühəndis-axtarış işləri, tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi fəaliyyət növləri ilə əlaqədar lisenziya alınması üçün müraciət edildikdə lisenziya və icazənin əlavəsi təqdim edilir

# Lisenziyanın verilməsi üçün dövlət rüsumu

- Lisenziyanın verilməsinə görə dövlət rüsumunun dərəcələri və ödənilməsinin xüsusiyyətləri "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci və 23-cü maddələri ilə müəyyən olunmuşdur.
- Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Bakı şəhərində həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə dövlət rüsumu tam məbləğdə ödənilir.
- Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə müəyyən edilmiş dövlət rüsumunun 50 faizi (regional televiziya yayımı və regional radio yayımı istisna olmaqla) ödənilir.

# Lisenziyanın müddəti

Sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) üzrə verilən lisenziya istisna olmaqla, lisenziya müddətsiz verilir.

Sellülar (mobil) rabitə xidmətləri (texnoloji standartın adı göstərilməklə) üzrə lisenziya 10 il müddətinə verilir.



# Lisenziya və icazənin dayandırılması

Lisenziya və icazələr aşağıdakı hallarda dayandırılır:

- lisenziya (icazə) sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- lisenziyanın (icazənin) sahibi lisenziya və icazə şərtlərinin pozulması hallarının aradan qaldırılmasına dair lisenziya və icazə verən orqanın, həmçinin müvafiq nəzarət orqanının göstərişlərini yerinə yetirmədikdə;
- Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda.

# Lisenziya və icazənin ləğv edilməsi

Lisenziya və icazələr, onların dayandırılması üçün sadalanan hallar da daxil olmaqla aşağıdakı hallarda ləğv edilir:

- lisenziyanın (icazənin) sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- lisenziyanın (icazənin) müddəti bitdikdə;
- lisenziyanın (icazənin) sahibi olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;
- lisenziyanın (icazənin) sahibi olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə;
- məhkəmənin müvafiq qərarı olduqda;

# Lisenziya və icazənin ləğv edilməsi

Davamı:

- lisenziyanın və icazənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə;
- lisenziyanın sahibi lisenziyanın dayandırıldığı müddət bitənədək lisenziyanın dayandırılmasına səbəb olan halların aradan qaldırılması ilə bağlı lisenziya verən orqana yazılı məlumat vermədikdə;
- lisenziyada göstərilmiş fəaliyyət növü və icazə lisenziya tələb olunan fəaliyyət növlərinin və icazələrin siyahısından çıxarıldıqda;
- Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda;

# Lisenziyanın və icazənin verilməsindən imtina

Ərizədə və ona əlavə olunmuş sənədlərdə qanuna uyğun olmayan məlumatlar olduqda və ərizəçi lisenziya və icazə verilməsi şərtlərini yerinə yetirmədikdə lisenziyanın və icazənin verilməsindən imtina edilə bilər



# DİQQƏTİNİZƏ GÖRƏ ÇOX SAĞ OLUN!

